DOI:10.30546/gdu.2023.60-63

**UOT: 63.**

# SƏPİNDƏN SONRA NORMAL BİTKİ ÇIXIŞI, KEYFİYYƏTLİ VƏ YÜKSƏK MƏHSUL ALMAĞIN ƏSASIDIR

***dosent Yusifov Mustafa Qasım oğlu, dosent Cavadov Elçin Məhəmməd oğlu, dosent Əhədova Gülçimən Rasim qızı, Xəlilova Aynur Mirzəağa qızı***
***Gəncə Dövlət Universiteti***
**elcin.55@bk.ru**
**gulcemenehedova@gmail.com**

**Xülasə:** *Məqalədə səpindən sonra normal bitki çıxışı keyfiyyətli və yüksək məhsul almağın əsasından bəhs olunur. Bitki toxumunun əkilməsindən sonra sahədə suvarılma aparılarsa və kütləvi (uzunmüddətli yağış yağarsa) çöküntüdən sonra tarlanın üst səthi kipləşdiyindən toxumun cücərtisi torpaq səthinə çıxa bilmir.*

*Bu halda torpağın səthi (MBH-2,8) və y yüngül dişli səpin malası səpin və ya (ЗОР07) malasından istifadə olunaraq torpaq sahəsini səthində yaranan qaysaq və kiplik aradan qaldırılmaqla cücərtilərin torpaq səthinə çıxması təmin olunmaqla tarlanın səthidə yaranan körpə alaq otları məhv olunur.*

**Açar sözlər:** pambıq çiyidinin isladılması, taxıl bitkilərinin cərgəli, dar cərgəli, bitkilərin gencərgəli, gencərgəli yuva, gencərgəli lent üsulu və qarışıq səpin texnologiyası

**Ключевые слова**: замачивания семян хлопчатника,, рядовой , узко - рядовой росев зочновых культур, широкорядных, широкорядных гнездовых, широкорядных–ленточных и смешанная технология сетён сельскохозяйственных культур

**Keywords:** soaking cotton seeds, row, narrow-row dew of crops, wide-row, wide-row nesting, wide-row-tape and mixed technology of nets of agricultural crops

Cəmiyyətdə ayrı-ayrı ölkələrin hərbi-siyasi, dini baxışlarının qarşı durması dövründə bütün ölkələrdə baş verən “COVİD-19” xəstəliyinin sona çatmaması və başlanmasından bir keçməsinə baxmayaraq Ruisya-Ukrayna müharibəsi yer kürəsində əhali sayının 8 milyarddan artıq olmasına əhəmiyyət verilməsədə dünyada ərzaq proqramının həlli günün əsas məsələsidir. Bu məsələnin həllinə mənfi təsir edən amillərin başlıca səbəbi Rusiya – Ukrayna müharibəsinin dünyanın ərzaq buğdasının 30%-ən artığını təşkil edən Ukrayna və Rusiyanın anbarlarında saxlanan ərzaq buğdasının daşınmasında mühüm rol oynayan Türkiyədə baş verən (13 əyalətində) dağıdıcı zəlzələnin vurduğu zərərin aradan qaldırılmasıdır.

Hazırda beynəlxalq aləmdə baş verən hərbi, milli və dini çatışmamazlıqlar onu göstərir ki, hər bir ölkə özünün lazım olan ərzaq proqramının həllini maksimum dərəcədə özü həll etməlidir.

Respublikada dövlət başçısının göstərişinə əsasən indiyə qədər ölkə əhalisinin ərzaq buğdasına tələbatının yalnız 25 – 30% ödənilməsinə baxmayaraq 2022-ci ildən tələbatın ən azı 70% -in ödənilməsi üçün 60 taxılçılıqla məşğul olan inzibati rayonda 1 mln ha-dan artıq sahədə taxıl istehsalı planlaşdırılıb. Onu da nəzərə almaq lazımdır ki, Qarabağ ərazinin 44 günlük müharibədən sonra əkin sahələrinin minadan təmizlənməsindən sonra bədnam erməni qonşu ilə sülh müqaviləsi bağlanacağı vaxtdan Qarabağın iqtisadi rayonundada turizm, əkinçilik və heyvandarlıq müasir inkişaf etmiş dünya ölkələri səviyyəsində qurulması planlaşdırılır.

Azərbaycanda əkin sahələrinin əhalinin sayına görə az olması, içməli və suvarma suyunun tələb olunan normadan 40% az olmasına baxmayaraq, torpaq-iqlim şəraitinin çox olması (dünyada olan 12 iqlim şəraitindən 9-u Azərbaycanda mövcuddur) imkan verir ki,

DOI:10.30546/gdu.2023.60-63

bir il müddətində dağətəyi və aran iqtisadi rayonlarda iki, üç dəfə məhsul almaq və ya bir bitkidən bir neçə dəfə məhsul almaq (yığmaq) mümkündür.

Yuxarıda göstərilənləri nəzərə alaraq il ərzində eyni torpaq sahəsində növbə ilə bir neçə bitki əkib becərərək bitkidən bir neçə növdə məhsul və ya bir bitkidən bir neçə dəfə məhsul almaq hətta keçmiş ittifaq dövründə də yerinə yetirilirdi. Bunun üçün istifadə olunacaq texniki vasitələr istənilən vaxtda istifadəyə hazır olmalıdır. Yuxarıda göstəriləndən əlavə istifadə olunacaq su ehtiyatı əldə etmək üçün süni sututarlar (göllər) yaradılırdı.

Keçmiş İttifaq zamanı pambıqçılığa yaradılan qayğı nəticəsində XX əsrin sonunda pambıq iastehsalı 1 mln ton olduğu illərdə erkən məhsulu toplanmış arpa tarlalarına təkrar olaraq əkilmiş pambıq sahələrindən mövsümün sonuna kimi (ilin oktyabr- noyabr aylarında) nəzərdə tutulan məhsul əldə eduilirdi. Aran iqtisadi rayonalrında payızlıq dənli bitkilərin məhsulunun yığımından sonra başqa dənli bitkiləri (qarğıdalı və s.) və ya bostan tərəvəz bitkiləri əkilərək yüksək keyfiyyətli və bol məhsul əldə etmək olurdu. Respublikada məhsul yığımından sonra müxtəlif heyvan növlərinin payız – qış aylarında qarışıq və şirəli yemlərlə təmin olunması üçün dənli bitkilərin məhsulunun toplanmasından sonra yem bitkilərinin becərilməsi və yem istehsalı kütləvi halda tətbiq olunurdu.

Hazırda dünya əhalisinin qarşısında duran məsələlərdən ən əsası yer kürəsində baş verən (COVİD -19) xəstəliyini həll olunmamış mənfi nəticələri ölkələrin hər bir siyasi, iqtisadi, dini qarşıdurmalar, kütləvi köçkün və təbii hadisələrin pik həddə çatdığı dövrdə respublikada ərzaq proqramının həlli günün başlıca məsələsidir.

Ərzaq proqramının lazımi səviyyədə yerinə yetirilməısi üçün nəzərdə tutulan bütün aqrar texnoloji proseslər (şum – yumşaltma, səpinqabağı becərmə, səpin, səpindən sonra mütəşəkkil çıxış almaq, zərərverici və xəstəlik törədicilərinə qarşı mübarizə tədbirləri, cərgəarası becərmə, yetişmiş məhsulun yığımı, yığımdan sonra məhsulun çeşidlənməsi, saxlanması və s. torpaq – iqlim şəraitinə, k/t bitkisinin fiziki – mexaniki xüsusiyyətləri, yerinə yetirilən texnoloji proseslər üçün nəzərdə tutulan texniki vasitələrə tələblər tam ödənilməlidir.

Yuxarıda göstərilən hər bir texnoloji proses özündən sonrakı bütün texnoloji proseslərin keyfiyyətli yerinə yetriməyin əsasını qoymaqla yüksək keyfiyyətli və bol məhsul almağın əsasıdır. Bu texnoloji proseslərin ən mühümlərindən biri toxum səpinindən sonra normal sıxlığa malik bitki çıxışı almaqdır. Respublikanın əkinçiliyində strateji məhsul sayılan pambıq çiyidinin səpindən əvvəl islatmaq üçün onu sement və ya asfalt döşəmə meydançaya 20÷30 sm qalınlığında eni 1÷1,5m sərirlər. Onu elə sərmək (yaymaq) lazımdır ki, qarşı – qarşıya dayanan iki fəhlə eyni vaxtda toxumla suyu qarışdıra bilsin. Çiyid tığının (topa) uzunluğu gündəlik lazım olan toxum materialının miqdarından asılıdır. Çiyidi islatdıqda onu taxta kürəklərlə diqqətlə qarışdırmaqla 1m quru çiyidə 40÷800 litr su hopdurulur. Taxıl (buğda, arpa, vələmir, çəltik və s.) bitkilərinin toxumu cərgəvi üsulla (cərgəarası məsafə 15÷ 12,5sm) tirəyə səpin üsulu ilə münbit torpaqlarda, münbitliyi nisbətən aşağı olan torpaqlarda isə dar cərgəli səpin texnologiyası ilə (cərgələrarası məsafə 7–8sm) tirəyə səpin üsulu ilə СТЗ -3,6 tipli taxıl və dənli paxlalı bitkilərin toxumunu səpir.

Bəzi k/t bitkilərinin toxumu lentşəkilli yuva üsulu ilə (40x20sm, 40x15sm)gencərgəli lentşəkilli üsulla və ya qarışıq səpin üsulu tirənin dibini və ya tirənin təpəsinə qarışıq taxıl və ot toxumu səpmək üçün istifadə olunur.

Yuxarıda göstərilən səpin texnologiyası ilə, cərgəvi, darcərgəli, gencərgəli səpindən sonra torpaq 3÷5 gün ərzində tarlada torpaq çökdükdəın sobnra tarlanın mailliyi nəzərə alınaraq suvarma şırımları asıldıqdan sonra (8 – 10 m enində) aşağıdan yuxarıya doğru suvarma aparılmalıdır. Suvarma zamanı hər bir şırımdan kənara çıxan su əvvəlki suvarma ilə şırıma axa bilər.

DOI:10.30546/gdu.2023.60-63

Bəzi k/t bitkilərinin səpinindən sonra normal çıxış alınana kimi havanın isti keçməsi və ya güclü küləyin təsiri ilə qaysaqlama baş verərsə torpağın qaysağını dağıtmaq üçün fırlanan iynəli fırlanan diskdən istifadə olunmalıdır (МВН-2,8). Səpindən sonra səthi düz olan tarlada qaysaq əmələ gələrsə, həmin qaysağı bitki çıxışına zərər verməmək üçün dairəvi dişli vərdənədən (ККН-2,8) istifadə etmək daha əlverişlidir.

K/T bitkilərinin toxumunun səpinindən sonra suvarma aparıldıqdan və ya kütləvi yağıntıdan sonra yaranan qaysağın bitki çıxışına (pambıq, qarğıdalı, kartof və s.) maneçilik törətməmək üçün yüngül üçbəndli səpin malasından (ЗБП-0,6 və ya ЗОР-0,7-dən) istifadə olunması daha əlverişlidir.

Səpindən sonra nəzərdə tutulan kütləvi bitki çıxışı almaq bol və keyfiyyətli məhsul götürməyin əsasıdır.

Zəif çıxış alınmış əkin sahəsində cərgəarası becərmə, suvarma və zərərverici xəstəliklərə qarşı mübarizə texnologiyaları çox diqqətlə aparılmaqla mineral və üzvi gübrələrin və onların məhlul halında verilməsi çox vacibdir.

***Ədəbiyyat***

1. X.Güləhmədov "Pambıqçılıq". "Maarif" nəşriyyatı. Bakı, 1976, 274 s.
2. N.N.Məmmədov., T.M.İbrahimov., A.C.Axundov "Kənd təsərrüfatı maşınları" Gəncə, 2006. 406 səh.
3. А.Н.Карпенко., А.А.Зеленев., В.М.Халанский «Сельскохозяйст-венные машины» Москва. «Колос» 2019, 471стр.
4. M.Q.Yusifov., T.Z.Verdiyeva. "Kənd təsərrüfatı texnologiyaları" AKTA. Gəncə, 2019, 138 səh.
5. Л.А.Гуревич., В.А.Лиханов., Н.П.Сыругов «Тракторы и сельскохозяйственные машины» М. Агропромиздат. 1986

## НОРМАЛЬНАЯ ПРОИЗВОДИТЕЛЬНОСТЬ РАСТЕНИЯ ПОСЛЕ ПОСЕВА – ОСНОВА ПОЛУЧЕНИЯ КАЧЕСТВЕННОЙ И ВЫСОКОЙ ПРОДУКЦИИ

***Юсифов Мустафа Касум оглы, Джавадов Эльчин Магомед оглы, Ахадова Гюлчиман Расим кызы, Халилова Айнур Мирзаага кызы***

***Резюме***

В статье говорится об основах получения качественного и качественного урожая после посева. Если поле орошается после посева семян растений и после обильных (длительных дождей) осадков, верхняя поверхность поля покрывается плесенью, поэтому всходы семян не могут достичь поверхности почвы.

После выхода всходов на поверхности земли корку и плесень удаляют с помощью легкозубчатой посевной кельмой (МБХ-2,8) и совкой (ЗОР07), а молодые сорняки появляющиеся на поверхности поля уничтожаются.

## NORMAL PLANT PRODUCTIVITY AFTER SOWING IS THE BASIS FOR OBTAINING QUALITY AND HIGH PRODUCTS

***Yusifov Mustafa Kasum, Javadov Elchin Magomed Akhadova Gulchiman Rasim, Khalilova Ainur Mirzaaga***

***Summary***

The article talks about the basics of obtaining a high-quality and high-quality crop after sowing. If the field is irrigated after sowing plant seeds and after heavy (long rains) rainfall, the upper surface of the field is covered with mold, so seedlings cannot reach the soil surface.

DOI:10.30546/gdu.2023.60-63

After seedlings emerge on the ground surface, the crust and mold are removed with a lightly toothed sowing trowel (MBKh-2.8) and a scoop (ZOR07), and young weeds appearing on the field surface are destroyed.

***Rəyçi: dos. Quliyev Niyazi***
***ÜTF kafedrasının 20 iyun 2023-cü il tarixli iclasın 10 saylı protokolu***
***Daxi olma tarixi 21 iyun 2023-cü il***